

# AZƏRBAYCANDA TURIZM: STRATEGIYA VƏ TAKTIKA

*Cənubi Qafqazın ən böyük dövləti olan Azərbaycan öz təbii-iqlim, rekreasion, tarixi-mədəni abidələri və digər resurslarına görə geniş imkanlara malikdir. Neft və qaz ehtiyatları zəngin ölkələr sırasında öndə gedən respublikamız böyük intellektual potensialı ilə MDB ölkələrində xarici investorlar üçün cəlbedicidir. Avropa və Asiya nəqliyyat dəhlizini birləşdirən Azərbaycanın yüksək səviyyədə inkişaf etmiş turizm ölkələri sırasına daxil olması üçün əlverişli şərait vardır.*

***Yüksək potensiala malik olan Azərbaycan tarix boyu bir çox xarici dövlətlərin diqqətini cəlb etmiş və ölkə resurslarından uzun müddətli birgə istifadə etmək təklifi almışdır. Sovet hakimiyyəti illərində Azərbaycan öz resurslarının sahibi olmadığı üçün bu planlar həyata keçməmişdir.***

Son illər ictimai həyatın bütün sahələrində baş vermiş böyük dəyişikliklər turizm sferasına da öz təsirini göstərmişdir. Bu bir tərəfdən çoxsaylı insanları işlə təmin edən və regiona xarici turistlərin müntəzəm gəlmələrilə məşğul olan İnturist sisteminin dağılması, digər tərəfdən həmkarlar ittifaqı putyovkalar sisteminin yox olmasıdır. Daha sonra siyasi, sosial və iqtisadi xarakterli başqa səbəblər nəticəsində bu sahə yeni inkişaf yolları axtarışı qarşısında qaldı. Ölkənin iqtisadiyyatında prioritet sahə kimi qəbul edilmiş turizm aparıcı sektorlar olan nəqliyyat və rabitə, ticarət, tikinti sahəsi, kənd təsərrüfatı, xalq istehlakı mallarının istehsalı və digərlərinə böyük təsir göstərərək sosial-iqtisadi inkişafın katalizatoru kimi çıxış edir.

İnkişaf etmiş turist sənayesinin təşkili iqtisadiyyatın struktur dəyişdirilməsinin effektli istiqamətlərdən biri kimi mühüm əhəmiyyət kəsb edir. Turizm sferasının inkişafı üçün infrastruktur obyektlərinin formalaşmasına istiqamətləndirilmiş birbaşa investisiyalar, bu investisiya axınını stimullaşdıran vergi və gömrük üzrə güzəştlər dövlətin köməkliyi nəticəsində olmalıdır. Ümumiyyətlə turist siyasəti dövlətin sosial-iqtisadi siyasətinin bir növüdür. Ölkənin turist siyasətinin həyatakeçmə mexanizmlərinə aşağıdakılar aiddir:

- turizmin inkişaf konsepsiyasının işlənməsi;
- turizmin inkişafı üzrə məqsədli proqramların tərtibi;
- qoyulmuş məqsədlərə nail olmaq üçün konkret tədbirlərin işlənilməsi;
- turist fəaliyyətinin dövlət tənzimlənməsi.

Ölkənin turist siyasəti strategiya və taktikaya əsaslanır.

Strategiya dedikdə ümumi istiqamət və qoyulmuş məqsədə nail olmaq üçün vasitələrdən istifadə etmək üsulu başa düşülür.T urist strategiyası turizmin yenidən təşkili və inkişafı sahəsində dövlətin fəaliyyətini müəyyən edir. İlk növbədə dövlətin fəaliyyəti ümumi inkişaf konsepsiyasının və məqsədli proqramların işlənilməsinə istiqamətlənmişdir ki, bu da öz növbəsində onların realizəsi üçün zaman və böyük maliyyə ehtiyatları tələb edir.

Taktika dedikdə kiminsə davranış xətti və həmin şəxs tərəfindən seçilmiş hər hansı bir məqsədə çatmaq vasitəsi başa düşülür. Turist taktikası konkret şəraitlərdə qoyulan məqsədə nail olmağın konkret üsul və yollarıdır. (məs. beynəlxalq turist fəaliyyətinin lisenziyalaşdırmaq qaydaları, turizmdə qiymətqoyma, vergiqoyma və s.). Turist taktikasının vəzifəsi təsərrüfat şəraitində düzgün optimal qərarın seçilməsidir.

Ölkədə turizmin inkişaf perspektivləri Azərbaycan Respublikası Prezidenti H. Əliyevin 27. 08. 02 tarixli, 1029 saylı "Azərbaycan Respublikasında 2002-2005 illərdə turizmin inkişafına dair Dövlət Proqramı" sərəncamında müəyyən edilmişdir. Bu mühüm dövlət sənədində turizmin inkişaf istiqamətləri təhlil edilərək konkret tədbirlər göstərilir. Dövlət proqramında qeyd edilir ki, nadir təbii-iqlim şəraiti olan Azərbaycan Respublikasında planetin 11 iqlim qurşağından 9-u mövcuddur. Ölkənin fauna və flora aləmi müxtəlif olaraq, həm də zəngindir. Azərbaycanda 14 təbii və tarixi qoruq, 17 müvəqqəti qoruq, milli parklar və ovçuluq təsərrüfatı vardır. Xəzər dənizi boyunca 7 istirahət zonası yerləşir. Ölkə ərazisində 6 mindən artıq memarlıq və mədəni abidələr qorunub saxlanılır. Ölkənin təbii-mədəni və tarixi irsi onun beynəlxalq turizm bazarına daxil olmasına real zəmin yaradır.

Ölkə turizminin inkişafında Bakı şəhəri mühüm yer tutur. Əcnəbilərin 90 faizindən çoxu ölkə paytaxtına gəlirlər. Neft kontraktlarının işə düşməsi ölkəyə gələn xarici iş adamlarının axınının artmasına şərait yaratmışdır. Bakıda zəngin memarlıq abidələri, çoxsaylı müzey, teatr, tarixi və müasir binalar, dini obyektlər xarici ölkələrdən gələn turistlərin diqqətini cəlb edir. Bakıda 50 turist agentliyi, 10 mehmanxana vardır. Son vaxtlar ictimai-iaişə idarələrinin sayı xeyli artmışdır. Ölkədə, xüsusilə Bakı şəhərində beynəlxalq standartlara cavab verən mehmanxanaların, ayrı-ayrı rayonlarda kempinq, motel, digər turizm obyektlərinin tikintisi ölkəyə gələn və xaricə gedən turistlərin, eləcə də fəaliyyət göstərən turizm təşkilatlarının sayının artması bu sahənin inkişafına xüsusi diqqət yetirilməsini, onun maddi-texniki bazasının möhkəmləndirilməsini zəruri edir.

Dövlət Proqramının əsas məqsədi "Turizm haqqında" Qanunda, habelə digər müvafiq normativ hüquqi aktlarda nəzərdə tutulmuş müddəalara uyğun olaraq turizm sahəsində dövlət siyasətinin həyata keçirilməsini, ölkənin sosial-iqtisadi inkişafını təmin edən vəzifələrdən biri kimi turizm resurslarından səmərəli istifadə olunmasını təmin etməkdən ibarətdir.

Proqramın əsas vəzifələri aşağıdakılardır:

- ölkənin turizm potensialından səmərəli istifadə etməklə Azərbaycan Respublikasında turizmin inkişafına nail olmaq;
- turist fəaliyyətinin dövlət tənzimlənməsi sisteminin formalaşdırmaq;
- turizm sahəsində sahibkarlığı, ilk növbədə kiçik və orta sahibkarlığı inkişaf etdirmək;
- rəqabətə davamlı turizm bazasını yaratmaq;
- turizmdən dövlət və yerli büdcələrə daxil olan vəsaitin həcmini artırmaq;
- turizm infrastrukturunu, onun maddi-texniki bazasını möhkəmləndirmək;
- xarici investorları turizm sahəsinə cəlb etmək;
- turizm müəssisələrinin beynəlxalq proqramlarda iştirakı üçün əlverişli şərait yaratmaq.

Proqramın məqsəd və vəzifələrindən çıxış edərək onun realizəsi üçün planlaşdırılan tədbirlər sisteminə aşağıdakılar daxildir:

- normativ - hüquqi bazanın təkmilləşdirilməsi;
- turist fəaliyyətinin təşkili və turizmin inkişafının idarəedilməsi;
- marketinqlə bağlı tədbirlər;
- turist xidmətlərini beynəlxalq standartlar səviyyəsinə çatdırmaq
- elm və kadr təminatı
- daxili turizmin təşkili üzrə tədbirlər.

Bu tədbirlərin realizəsi imkan verəcək ki, bazar münasibətlərinə adekvat, bu sahədə dünya təcrübəsini nəzərə almaq şərtilə turizmin inkişafının dövlət tənzimlənməsi və stimullaşdırılması sistemi yaradılsın.



Turist fəaliyyətinin dövlət tənzimlənməsinin əsas məqsədləri bunlardır:

- turist sənayesində lisenziyalaşma, standartlaşma, turist məhsulunun sertifikasiyası;
- turistlərin hüquq və maraqlarının müdafiəsi, onların təhlükəsizliyinin təmin edilməsi;
- ümumdünya turist təşkilatının tövsiyyələri və BMT-nin statistik kommissiyasının qərarına uyğun turizmi bütünlüklə əhatə edən yeni statistik sisteminin təşkil edilməsi;
- beynəlxalq turist sərgilərinin və Azərbaycanda sərgilərin təşkili və keçirilməsində iştirak etmək;
- turizmin inkişaf problemlərilə bağlı respublika və elmi-praktik konfransların keçirilməsi;
- turist sənayesinə investisiyalar üçün münbit şəraitin yaradılması;
- turist fəaliyyətinə kadr təminatı ilə kömək etmək;
- turist fəaliyyəti sahəsində elmi tədqiqatlarını inkişaf etdirmək;
- Azərbaycan Respublikası qanunvericiliyində müəyyən edilmiş qaydalara uyğun digər üsular.

Azərbaycanda turist imicinin yüksəldilməsinə nümunə olaraq "Enerji və atəş evinin" yaradılması zərurətilə onun konsepsiya və proqramının işlənilməsidir. Bu turist Mərkəzinin təşkili ideyası 2002-ci ilin dekabrında neft muzeyinin təşkili haqqında qərar qəbul edən Azərbaycan Respublikasının eks-prezidentinə məxsusdur. Bu muzeyin layihəsinin işlənməsi Azərbaycan Nefr Şirkətinə, müvafiq nazirliyə və Bakı şəhəri icra hakimiyyətinə həvalə olunmuşdur.

Layihənin məqsədi - Bakı şəhəri sahil zonasının abadlaşdırılması, mədəni həyat səviyyəsinin yüksəldilməsi, turist resurslarından açıq istifadəedilməsi və orjinal turist məhsulunun hazırlanmasıdır. Azərbaycanın mədəni və turist fəaliyyətinin inkişafına istiqamətləndirilmiş bu layihə beynəlxalq və milli ekspertlərin iştirakı ilə hazırlanmış, BMT-nin inkişaf proqramı tərəfindən bəyənilmişdir. Müəlliflər bu layihədə ölkənin keçmişi, bu günü və gələcəyini ön plana çəkməklə bu xarakteristikalara əsaslanmışlar:

- neft və qaz yataqlarından əldə edilən energetik resurslar;
- ölkənin adında öz əksini tapmış, çoxaspektli simvol olan atəş;

Layihədə əsas diqqət ölkədə neft və qazın istismarında iştirak edən müvafiq və marağı olan hökumət və ictimai strukturların, beynəlxaq əməkdaşlıq üzrə təşkilatların, böyük beynəlxaq və maliyyə kompaniyalarin cəlb edilməsidir. Mədəni, tarixi və turist Mərkəzinin yaradılmasında əsas məqsədi dünya ictimaiyyətini azərbaycan xalqının bütün nailiyyətləri haqqında məlumatlandırmaqdır.

Layihə bir-birini tamamlayan beş elementdən ibarətdir.

Birinci elementdə.Bakı neftinin tarixi, insan sivilizasiyasının inkişafına onun təsiri və enerjinin müxtəlif növlərinin olması haqqında məlumat verilir. Bu element daimi fəaliyyət göstərməklə mövzu üzrə dəyişkən sərgi olacaq.

İkinci element - neftlə onun istismarı və istifadəsilə bağlı ölkənin tarixidir. Azərbaycanın əhalisi 13 əsr ərzində ondan istilik enerjisi kimi istifadə etmişlər.

Üçüncü element - neft sənayəsinin pionerləri haqqında.

Dördüncü element - Xəzərin neft yataqları, neftin keyfiyyəti, geofizika, kəşfiyyət, qazma, avadanlıq və texnologiyalar, şelf texnologiyası, dənizdə neft hasilatı (neft daşları), təhlükəsizlik məsələləri və s.

Beşinci element - neft hasilatı perspektivi, neft emalı, neft kimyası. Xəzərdə neft yataqları perspektivləri, yeni əsrin yeni problemləri.

Salonlardan biri turizmə digəri isə tələbə gənclərə, İnternetə, təhsilə həsr ediləcək və Mərkəzin bütün elementləri ən müasir avadanlıq, video və elektron texnikası ilə təchiz ediləcək. Burada kafe və barlar, turizmə həsr edilmiş kitab və xəritələr, suvenirlərin satışı olacaq. Elə buradaca Bakı turist informasıya mərkəzi yerləşəcək. Bura gələn həm xarici, həm də yerli turistlər dəniz katerləri və vertolyotlarla Abşeron yarımadası ətrafında gəzintiyə çıxacaqlar.

Bu böyük layihənin həyata keçməsi dövlət, şəhər orqanları, müvafiq nazirlik, eləcədə marağı olan beynəlxalq təşkilatlar birgə fəaliyyət göstərəcəklər.

*Sabit turizmin inkişaf strategiyası yalnız mötəbər imic reklamında bütünlüklə hazırkı istiqamət individuallığına əsaslanaraq işlənməlidir. Azərbaycan nəinki bu elementlərə malikdir, həm də öz unikallığı və çox güclü cəlbetmə potensialları ilə fəxr edə bilər.*

**Səidə SULTANLI,**
**ADİU-nin müəllimi**

**Ədəbiyyat.**

1. Azərbaycan Respublkasında "2002-2005 -ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı", 27 avqust 2002, Bakı.
2. Балабанов И.Т., Балабанов А.И. Экономика туризма. М.: Финансы и статистика, 1999.
3. Мамедов Джабир, Билалов Бахадур. Въездной туризм в Азербайджанской Республике (историко-географические и социально-экономические аспекты). Б.: 2003.
4. Tətbiqi kulturologiya. Dərslik. Bakı, Mars-Print. 2004.